Yeni Azərbaycan Partiyası – 30

# Yubiley təntənə ilə qeyd edilir

**Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində oktyabrın 20-də Gədəbəy, Xızı, Yevlax və Kəlbəcər rayon təşkilatlarında yubiley mərasimləri keçirilib.**

Rayon toplantılarının iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanını ziyarət ediblər.

Gədəbəy rayonunda keçirilən mərasimdə YAP rayon təşkilatının sədri Rüstəm Nağıyev, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Se-



vinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov; Xızı rayonunda YAP rayon təşkilatının sədri Ayaz Quliyev, Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova, Milli Məclisin deputatı Müşfiq Məmmədli; Yevlax rayonunda YAP rayon təşkilatının sədri Rafiq Əliyev, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, YAP İdarə Heyətinin



üzvü Elnur Sadıqov, YAP Veteranlar Şurasının üzvü Zahid Xəlilov, Milli Məclisin deputatı İlham Məmmədov; YAP Kəlbəcər rayon təşkilatının Gəncədə keçirdiyi yığıncaqda isə rayon təşkilatının sədri Həbib Misirov, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Cavid Qurbanov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, Milli Məclisin deputatı Aqil Məmmədov, rayon icra hakimiyyətinin başçısı Azər Qocayev və başqaları çıxış ediblər.

Yubiley mərasimlərində ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamızın qazandığı tarixi nailiyyətlərdən bəhs olunub.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

YAP Nəsimi rayon təşkilatının gənc üzvləri isə həmin gün Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

***"Xalq qəzeti"***